Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyi

Vətəndaş cəmiyyəti, hüquqi dövlət quruculuğu

# Hüquqi dövlət quruculuğu Heydər Əliyevdən başladı...

**Azərbaycan dövlət müstəqilliyini bərpa etdikdən sonra qarşıda duran əsas məsələ dövlət quruculuğu ilə bağlı idi ki, bu prosesə də Heydər Əliyev öndərlik etdi. Müstəqilliyimizin ilk illəri böhranlarla, mürəkkəb məsələlərlə müşayiət olunurdu. Dövlətçiliyin möhkəmlənməsi vacib amillərdən biri idi ki, bu yol da çox ağır, keşməkeşli oldu.**

Heydər Əliyev xalqımızı ağır bəlalarda qurtarıb onu yeni yola çıxardı. Məlumdur ki, 1993-cü ildə hakimiyyətə qayıdan H.Əliyev həyata keçirdiyi iqtisadi tədbirlər yenicə müstəqillik əldə etmiş və müharibə şəraitində yaşayan bir ölkə olan Azərbaycana beynəlxalq aləmdə etibar qazandırdı. Dövlət quruculuğu sahəsində fundamental işlər görüldü. Eyni zamanda, erməni işğalının qarşısının alınması istiqamətində əhəmiyyətli addımlar atıldı, atəşkəsə nail olundu. Dahi öndərin gələcəyə hesablanmış uzaqgörən siyasətinin nəticəsi olan "Əsrin müqaviləsi"nin imzalanması Azərbaycanın müstəqil dövlət kimi beynəlxalq arenadakı mövqeyini möhkəmləndirdi. Ekspertlər hesab edir ki, Heydər Əliyev xalqın tələbi ilə yenidən hakimiyyətə qayıtmasaydı biz bu gün nə dövlətimizin müstəqilliyindən, nə hüquqi dövlət quruculuğundan danışa bilərdik. Əliyev var gücü ilə çalışdı, şərlə, müstəqilliyimizin qənimi olan qüvvələrlə mübarizə aparıb onları yenib Azərbaycanda hüquqi dövlət quruculuğunun əsasını qoydu. Ekspertlər qeyd edirlər ki, Azərbaycanda hüquqi dövlət quruculuğu Heydər Əliyevin adı ilə bağlıdır və müasir hüquq sisteminin qurulması, inkişaf etdirilməsi onun dövlətçilik konsepsiyasında xüsusi və mərkəzi yer tuturdu.

**"Azərbaycan Respublikasında demokratik, hüquqi dövlət qurulmalıdır"**

Mətbuatdan da oxuyuruq ki, Heydər Əliyevin Prezidentliyi dövründə hüquqi dövlət quruculuğu sahəsində də mühüm işlər görülüb. Biz bu gün arxaya boylananda bunları qürurla xatırlayırıq. . Mətbutda yazılanlar görə, 1993-cü ildə ulu öndər qarşıya qoyduğu vəzifələri belə bəyan edirdi: "Azərbaycan Respublikasında demokratik, hüquqi dövlət qurulmalıdır. Azərbaycan dövləti demokratik prinsiplər əsasında fəaliyyət göstərməlidir, öz tarixi, milli ənənələrindən bəhrələnərək, dünya demokratiyasından, ümumbəşəri dəyərlərdən səmərəli istifadə edərək demokratik dövlət quruculuğu yolu ilə getməlidir".

Məlum olduğu kimi, hüquqi, demokratik və dünyəvi dövlətin əsaslarını yaratmaq məqsədilə Heydər Əliyevin rəhbərliyi altında müstəqil Azərbaycanın ilk Konstitusiyası hazırlanır və 1995-ci il noyabrın 12-də referendumda xalq tərəfindən qəbul edilir. Ekspertlər qeyd edirlər ki, Konstitusiyada xalqın dövlət hakimiyyətinin yeganə mənbəyi olması, idarəçiliyin hakimiyyət bölgüsü əsasında təşkil olunması kimi təməl prinsiplər təsbit olunur. İnsan hüquq və azadlıqlarına, habelə onların təminatlarına xüsusi yer ayrılır, onların təmin edilməsi isə dövlət siyasətinin həlledici istiqaməti, bütün dövlət orqanlarının fəaliyyətinin əsas məqsədi kimi müəyyən edilir. Ekspertlərin yazdığına görə, təsadüfi deyil ki, hüquqi dövlətin ayrılmaz atributu kimi insan hüquq və azadlıqlarının qorunması sonradan ölkədə həyata keçiriləcək hüquqi islahatların əsas istiqamətini müəyyən edir. Məlumatlara görə, hüquqi islahatların həyata keçirilməsi, demokratik təsisatların və qanunun aliliyi prinsipinin möhkəmləndirilməsi sahəsində qanunvericilik, icra və məhkəmə hakimiyyətlərinin qarşılıqlı fəaliyyətinin təmin edilməsi məqsədilə 1996-cı ildə Hüquqi İslahat Komissiyası yaradılır. Mətbutatda gedən informasiyaya görə, bu Komissiya ilkin mərhələdə reallaşdırılacaq hüquqi islahatlarının prioritetlərini müəyyən edir və Sovet İttifaqından miras qalmış hüquq sisteminin fəlsəfəsini tamamilə dəyişdirir. Azərbaycanda aparılan hüquqi islahatların özülünə ümumbəşəri demokratik prinsiplər, qanunun aliliyi və insan hüquqlarının müdafiəsi kimi fundamental dəyərlər, ədalət mühakiməsinin prinsipləri qoyulur. Eyni zamanda xalqımızın dövlətçilik tarixi və ənənələri, inkişaf etmiş dövlətlərin hüquqi dövlət quruculuğu təcrübəsi nəzərə alınır. Bundan əlavə, hüquqi islahatların aparılması, habelə ölkəmizin Avropa təsisatlarına inteqrasiyası məqsədilə 1996-cı il iyunun 8-də Avropa Şurası və Azərbaycan Respublikası arasında əməkdaşlıq proqramı qəbul olunur.



"İnsan hüquqlarının və əsas azadlıqlarının müdafiəsi haqqında Avropa Konvensiyası"nın müddəaları nəzərə alınmaqla yeni qanunlar hazırlanır. Mahiyyət etibarilə hüquqi islahatlar qanunların və digər normativ hüquqi aktların hazırlanması, hüquqi informasiya sisteminin genişləndirilməsi, məhkəmə və bütövlükdə hüquq mühafizə sisteminin islahatı, qanunların əhali arasında təbliği və öyrənilməsi kimi mühüm tədbirləri özündə ehtiva edir. Qeyd olunana görə, Komissiya tərəfindən hazırlanmış "Məhkəmələr və hakimlər haqqında", "Konstitusiya Məhkəməsi haqqında" qanunlar ölkəmizdə məhkəmə-hüquq islahatları sahəsində atılan ilk, lakin çox vacib addım olmaqla müstəqil məhkəmə sisteminin yaradılmasına və fəaliyyət göstərməsinə imkan yaradır, konstitusiya nəzarəti ideyası qəbul edilir. Konstitusiyada bəyan edilmiş məhkəmə hakimiyyətinin müstəqilliyi "Məhkəmələr və hakimlər haqqında" 1997-ci il Qanununda inkişaf etdirilərək öz real təminatını tapır və məhkəmə hakimiyyətinin müstəqil fəaliyyət göstərməsinə hüquqi zəmin yaradır. H.Əliyev 1998-ci il 18 iyun tarixli sərəncamı ilə insan hüquqlarının müdafiəsi sahəsində dövlət proqramı təsdiq olunur. Proqram insan hüquqları sahəsində milli qanunvericiliyin beynəlxalq hüquq öhdəliklərinə uyğunlaşdırılmasını nəzərdə tutur. Belə ki, bu məqsədlə proqram çərçivəsində qanunvericilik və institusional islahatlar həyata keçirilir. Bundan əlavə, ölkəmizin Avropa Şurasına üzvlüyü ərəfəsində milli qanunvericiliyin Avropa İnsan hüquqları Konvensiyası ilə müqayisəli təhlili aparılır...

Heydər Əliyevin hüquqi dövlət qurmaq yolunda atdığı bütün addımların, qəbul etdiyi bütün qərarların mahiyyətində, özəyində dövlətçiliyimizin möhkəmləndirilməsi, vətəndaş cəmiyyətinin inkişafı, hüquqi dövlət quruculuğu prosesinin uğurla həyata keçirilməsi və sair dayanırdı. Əlbəttə, bütün bunlar cəmiyyətin, dövlətin inkişafı üçün əsas amil idi. Demokratik hüquqi dövlət quruculuğu prosesi hazırda Heydər Əliyev çox böyük işlər görüb və bu gün xalq olaraq, dövlət olaraq o işlərin bəhrəsini görük. Özülü H.Əliyev tərəfindən qoyulan hüquqi dövlət quruculuğu siyasi kursunu, yolunu Prezident İlham Əliyev uğurla davam etdirir. Bu illər ərzində məhkəmə-hüquq sahəsində, dövlət quruculuğu yolunda çox mühüm işlər görüb ki, bunu da hər birimiz hiss edirik.

*İradə SARIYEVA*

**Yazı Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyinin maliyyə dəstəyilə çap olunur.**